**Əlavə A**

**İqtisadi Cinayətkarlıq Bölməsi / Əməkdaşlıq Direktoratlığı**
**İnsan haqları və hüquqi işlər üzrə Baş Direktoratlıq**

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

# Azərbaycanın Korrupsiyaya qarşı mübarizə Strategiyasına Dəstək (AZPAC)

**– Layihənin xülasəsi –**

22 Noyabr 2007-ci il versiyası

**AŞ layihəsi No. 2007/DG1/VC/951**

| | |
|---|---|
| Layihənin adı | Azərbaycanın Korrupsiyaya qarşı mübarizə Strategiyasına Dəstək (AZPAC) |
| Layihənin icra edilidiyi məkan | Azərbaycan |
| Büdcə | 800.000 ABŞ dolları |
| Maliyyələşmə | Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) |
| İmplementasiya | Avropa Şurası (İqtisadi Cinayətkarlıq Bölməsi / Əməkdaşlıq Direktoratlığı İnsan haqları və hüquqi işlər Baş Direktoratlığı) |
| Müddət | 24 ay (30 sentyabr 2007 – 30 sentyabr 2009) |

## ÜMUMİ MƏLUMAT VƏ ƏSASLANDIRMA

Son illər ərzində Azərbaycan hökuməti korrupsiya ilə mübarizə sahəsində bir neçə mühüm addımlar atmışdır. Ölkə Avropa Şurasının Korrupsiyaya qarşı cinayət və mülki hüquqi məsuliyyət haqqında konvensiyalarını 2004-cü ildə ratifikasiya etmiş və həmin ilin iyununda Şuranın Korrupsiyaya qarşı Dövlətlər Qrupuna (GRECO) qoşulmuşdur; Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası (UNCAC) 2004-cü ildə imzalanaraq, 2005-ci ildə ratifikasiya edilmişdir. 2004-cü ildə Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı qəbul edilmişdir. Proqram 2004-2006-cı illərdə həyata keçirilməsi planlaşdırılan hüquqi və institusional islahatların geniş istiqamətlərini əhatə etmişdir. 2006-cı ildə GRECO-nun qiymətləndirmə məruzəsində yeni 2007-2011-ci illər üçün "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" (bundan sonra Anti-korrupsiya strategiyası) və Fəaliyyət planının tətbiqi və mövcud qanunvericiliyə edilən dəyişikliklər alqışlanıb, lakin eyni zamanda məruzədə korrupsiyaya qarşı milli hüquqi və institusional çərçivilərin təkmilləşdirilməsinə yönəlmiş bir sıra tövsiyyələr də qeyd edilmişdir.

Milli qanunvericiliyin beynəlxalq standartlara və öhdəliklərə uyğunlaşdırılması istiqamətində Azərbaycan hökumətinin atdığı bir çox əhəmiyyətli addımlardan sonra həyata keçirilən hüquqi və institusional islahatların praktikada səmərəli həyata keçirilməsi və icra edilməsi çox vacibdir. Bu məqsəd növbəti illər üçün olan Korrupsiyaya qarşı yeni Strategiyanın və Fəaliyyət Planının icrasının əsas istiqamətverici qüvvəsi olmalıdır.

Beləliklə, bu məqsədlərə nail olmaq üçün texniki dəstək layihəsi islahatların təmin edilməsi və dəstəklənməsi, eləcə də aşağıdakı sahələrdə əməkdaşlıq üçün bir vasitə kimi xidmət edəcəkdir:

- Strateji səviyyədə
- Qarşısının alınması və təhsil sahəsində
- Məsuliyyətə cəlbetmə səviyyəsində

## MƏQSƏD, NƏTİCƏLƏR VƏ TƏDBİRLƏR

| | |
|---|---|
| **Ümumi məqsəd** | **Avropa və digər beynəlxalq standartlara və GRECO və MONEYVAL-ın tövsiyyələrinə uyğun olaraq korrupsiyanın qarşısının alınması və nəzarət vasitəsilə Azərbaycanda demokratiya və qanunun aliliyinə töhvə vermək.** |
| **Layihənin məqsədi** | **GRECO və MONEYVAL-ın tövsiyyələrinin yerinə yetirilməsinin təkmilləşdirilməsi və korrupsiyaya qarşı Avropa və beynəlxalq standartlara riayət edilməsi.** |
| **Nəticə 1** | **GRECO tövsiyyələri və müsbət təcrübələrinə uyğun təkmilləşdirilmiş strateji antikorrupsiya çərçivəsi.** |
| Tədbir 1.1 | Korrupsiyaya qarşı mübarizə üzrə yeni Strategiya və Fəaliyyət Planının (2007-2010 illər üçün Strategiya)[1] təqdimatı; |
| Tədbir 1.2 | GRECO dəyərləndirmə məruzəsi zamanı Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın dəstəklənməsi; |
| Tədbir 1.3 | Korrupsiyaya qarşı yeni Fəaliyyət Planı çərçivəsində nəzərdə tutulmuş korrupsiyaya qarşı tədbirlərin həyata keçirilməsində müvafiq dövlət qurumlarının dəstəklənməsi; |
| Tədbir 1.4 | Komissiya/Nazirlər Kabineti tərəfindən bütün müvafiq dövlət qurumları üçün monitorinq və hesabat alətləri üzrə üzrə nümunə qaydalar sisteminin hazırlanması |
| Tədbir 1.5 | Korrupsiyanın qavranılması və münasibətlərin müəyyən edilməsi üçün sorğuların hazırlanması və keçirilməsi üzrə Komissiyaya tövsiyələr və təcrübələrin bölüşdürülməsi vasitəsilə dəstək (Hüquq-mühafizə və ictimai sorğularda ümumi münasibət) |
| Fəaliyyət 1.6 | Komissiya və onun Qanunvericiliyin Təkmilləşdirilməsi üzrə İşçi Qrupunun avadanlıqla təchiz edilməsi; |
| **Nəticə 2** | **Müvafiq tərəfdaş təsisatlarla əməkdaşlıq şəraitində korrupsiya ilə mübarizə sahəsində beynəlxalq standartları öyrənilməklə yerli qanunvericiliyin təkmilləşdirilməsi üçün qanun/dəyişikliklər layihələrinin hazırlanması və müvafiq hüquqi çərçivənin səmərəli həyata keçirilməsi.** |
| Tədbir 2.1 | Korrupsiyaya qarşı bütün müvafiq konvensiyalara və alətlərə istinad edərək müqavilə hüququnun yerli səviyyədə icrasına dair təlimlərin keçirilməsi; |
| Tədbir 2.2 | Korrupsiyaya qarşı mübarizə və qarşısının alınması üzrə müvafiq müddəaları əhatə edən qanun layihələrinin hazırlanması və ya dəyirmi masaların keçirilməsinin dəstəklənməsi |
| Tədbir 2.3 | Milli qanunvericiliyin Avropa Şurasının Korrupsiya ilə əlaqədar mülki və cinayət hüququ Konvensiyalarına və BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına uyğunluğunun nəzərdən keçirilməsi; |
| Tədbir 2.4 | Müvafiq beynəlxalq hüquqi alətlərə uyğun olaraq yerli qanunvericilik üçün "uyğunluq cədvəlinin" və instusional təsisatların hazırlanması; |
| Tədbir 2.5 | GRECO Dəyərləndirmə Hesabatının 3-cü raundunda nəzərdə tutulan qanunvericilik təlimatlarının və tövsiyələrinin hazırlanması |
| **Nəticə 3** | **Maliyyə sistemindən çirkli pulların yuyulması və terorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadə edilməsinin qarşısının alınması üçün şəbəkə və sistemin formalaşdırılması, çirkli pulların yuyulması və terorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin Avropa və beynəlxalq standartlara uyğun aparılmasında Azərbaycan hakimiyyətinə milli və beynəlxalq səviyyədə əməkdaşlığın aparılması üçün imkanların verilməsi.** |
| Tədbir 3.1 | Maliyyə kəşfiyyat qurumunun və digər əməkdaş qurumların işçiləri üçün iqtisadi cinayətlər, xüsusilə korrupsiya və pulların yuyulması üzrə hallarla iş aparmaq üzrə ölkə-daxili çoxistiqamətli təlim kurs(u)larının keçirilməsi |
| Tədbir 3.2 | Avropa və beynəlxalq standartların və Avropa İnsan Hüquqları Konvensiyasının presedent hüququ əsasında bütün müvafiq təsisatlar (yerli bank işçiləri, yeni yaranacaq Maliyyə Kəşfiyyat Qurumunun işçiləri, auditor və vergi orqanlarının işçiləri) üçün, iqtisadi cinayətlərlə mübarizə aparan zaman, korrupsiya və şübhəli əməliyyatlar barədə məlumat verən zaman və qurumlar arası əməkdaşlıq zamanı əməliyyat axtarış vasitələrinin istifadəsinə dair xüsusi ölkədaxili təlim kurs(u)ları; |

[1] 2007-ci il

| | |
|---|---|
| Tədbir 3.3 | İqtisadi cinayətkarlıq sahəsində hakimlər üçün təlim kursları (korrupsiya və çirkli pulların yuyulması); |
| Tədbir 3.4 | Azərbaycan dilində müvafiq materialların (standartlar və ən yaxşı təcrübələr) təmin edilməsi vasitəsilə Maliyyə Kəşfiyyat Qurumunun yaradılmasının dəstəklənməsi; |
| Tədbir 3.5 | Yeni Maliyyə Kəşfiyyat Qurumunun təşkilati baxımdan qurulmasının dəstəklənməsi; Orqaniqram, əmək funksiyalarinin təsviri; fəaliyyətə dair təlimat; Prosedur qaydaları ilə bağlı təlimat və vasitələrin təmin edilməsi və bütün Maliyyə Kəşfiyyat Qurumunun işçiləri üçün təlim strategiyasının hazırlanması; |
| Tədbir 3.6 | Yeni Maliyyə Kəşfiyyat Qurumunun beynəlxalq əməkdaşlıqda məsul olan əmədaşlarının işlək Anlaşma Memorandumlarının əsasını qoymaq üçün iki Avropa ölkələrinin Maliyyə Kəşfiyyat Qurumlarına işgüzar/tanışlıq səfərləri. |
| **Nəticə 4** | **Dövlət qulluğu sahəsində etik qaydalar və maraqların toqquşması ilə bağlı müddəaların səmərəli idarəedilməsini institusionallaşdırmaqla və geniş tədqiqatlar vasitəsilə korrupsiyanın qarşısını alma imkanlarının bacarıqlarının artırılması.** |
| Tədbir 4.1 | Korrupsiyaya həssas sahələrin müəyyənləşdirilməsi üçün 3 tədqiqatın dəstəklənməsi və korrupsiyanın qarşısının alınmasına yönəlmiş və səmərəli etika və digər prosedurların tətbiqi üzrə sistemli təkmilləşmə üçün tədbirlərin tövsiyə edilməsi; |
| Tədbir 4.2 | Vergi sistemində korrupsiyanın qarşısının alınmasına töhvə vermək üçün Dürüstlük Testinin tətbiq edilməsi. |
| Tədbir 4.3 | Məhkəmə sisteminə aid olan dürüstlük testləri ilə bağlı nümunəvi təcrübələrə dair təlimlər vasitəsilə Məhkəmə sistemində korrupsiyanın qarşısının alınması imkanlarının gücləndirilməsinə tövhənin verilməsi; |
| Tədbir 4.4 | Dövlət qulluğu sahəsində maraqların toqquşması və etik davranışa dair təlimləri əhatə edən milli strategiyanın (və fəaliyyət planının) işlənib hazırlanması və icra edimәsinin dəstəklənməsi; |
| Tədbir 4.5 | Etika, Qiymətləndirmə və İcra dəyərləndirilməsi ilə əlaqədar Pilot təlimlərin və metodologiyanın təmin edilməsi |
| Tədbir 4.6 | Dövlət qulluğu sahəsində korrupsiya halları barədə məlumat vermə və fit-çalanların mühafizəsi üçün qaydaların hazırlanması |

Layihə, layihə sahəsinə məxsus ehtiyacları nəzərə alaraq həmçinin güclü regional əməkdaşlıq elementlərini ehtiva edəcək və anti-korrupsiya təsisatları arasında təcrübə mübadiləsi və birgə fəaliyyətə öz töhfəsini verəcəkdir.

## TƏRƏFDAŞLAR/BENEFİSİARLAR

Azərbaycan tərəfdən layihənin əsas tərəfdaşı Korrupsiya qarşı Mübarizə üzrə Komissiya olacaqdır. Komissiya layihənin digər tərəfdaşları və benefisiarları ilə əlaqə yaradan qurum olacaqdır. Layihənin digər benefisiarları aşağıdakılardır: Milli Bank, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi və Dövlət Qulluğu Məsələləri üzrə Kommissiya. Digər dolayı benefisiar və tərəfdaşlar arasında Baş Prokurorluq və Daxili İşlər Nazirliyi olacaqdır.

## İCRA PLANI

Layihənin icrasını həyata keçirəcək qrup Bakıda yerləşəcək və Yerli Layihə Meneceri ilə Uzunmüddətli məsləhətçidən ibarət olacaqdır. Layihənin icrasına gündəlik nəzarət etmək və Bakıdakı qrupa dəstək vermək üçün Strasburqda Layihə Meneceri təyin olunacaqdır. Layihə üzrə tədbirlə əsasən Bakıda həyata keçiriləcəkdir. Layihənin bütün inzibati idarəetmə işləri Avropa Şurasının İqtisadi Cinayətkarlıqla Mübarizə Bölməsi (Əməkdaşlıq Direktoratlığı, DG-HL, Strasburq) tərəfindən təmin ediləcəkdir.

Layihənin icrası və idarə edilməsi Avropa Şurası ilə Korrupsiyaya qarşı Mübarizə Komissiyası tərəfindən birgə həyata keçiriləcəkdir. Bu məqsədlə Korrupsiya qarşı Mübarizə üzrə Komissiya bu layihənin məqsədləri

üçün əsas tərəfdaş kimi fəaliyyət göstərəcək və bir nəfər vəzifəli şəxsi Layihə əlaqələndiricisi müəyyən edəcəkdir. Layihə komandası layihənin icra edilməsi üçün zəruri olan uzun müddətli milli ekspertlər daxil olmaqla qısa və uzun müddətli beynəlxalq məsləhətçi/ekspertəri qeyd edən İş planı təqdim edəcəklər. Avropa Şurası layihəni icrası zamanı münasib olan yerlərdə yerli peşəkarların fəal iştirakını, eləcə də Avropa və yerli ekspertlərin uyğun qarışığını təmin edəcəkdir. Bütün yerli ekspertlər müstəqil olmalı və maraqlar toqquşmasında azad olmalıdırlar.

## ƏLAQƏ

Hər hansı əlavə məlumat üçün aşağıdakı ünvanlara müraciət etməyiniz xahiş olunur

İqtisadi cinatətkarlıq bölməsi, DG-HL
Avropa Şurası
F-67075 Strasburq Cedex FRANCE

Tel +33 3 8841 2354
Fax +33 3 8841 3955
Elektron poçt: ardita.abdiu@coe.int və / yaxud
lado.lalicic@coe.int